BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 Humanitar elmlər seriyası 2014

UOT 94 (429:24)

# MƏRKƏZİ ASİYA RESPUBLİKALARINDA AZƏRBAYCAN DİASPORUNUN UĞURLARI, PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**R.R.CƏFƏROVA**
***AMEA-nın Tarix İnstitutu***
***cafarova.r@ mail.ru***

*Hər bir dövlətin milli maraqlarının dünyanın istənilən nöqtəsində layiqincə qorunması üçün həmin ölkənin güclü ideoloji bazası və bu baza üzərində dayanan diasporu olmalıdır. Diasporun əsas məqsədi mənsub olduğu dövlətin maraqlarını yaşadıqları ölkədə təbliğ etməkdir. Müasir dünya siyasətində diasporların müstəsna rolu var və onlar dövlətlərin xarici siyasətində mühüm yer tuturlar. Sovet imperiyasının "parçala və hökmranlıq et" siyasəti nəticəsində Azərbaycan xalqı dəfələrlə müxtəlif ölkələrə, o cümlədən Mərkəzi Asiya respublikalarına "səpələnmişlər". Səpələndikləri ərazilərdə mühacir həyatı yaşayan soydaşlarımız diaspor təşkilatları formasında fəaliyyət göstərmişlər. Mərkəzi Asiya respublikalarında mövcud olan Azərbaycan diasporları beynəlxalq aləmdə Qərbin ikili standartlarına qarşı etiraz tədbirlərində qardaş xalqlarla əl-ələ, çiyin-çiyinə addımlasalar daha böyük uğurlara imza atarlar.*

**Açar sözlər:** təşkilatlanma, repressiya, diaspor

Xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələri genişləndirmək, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər uğrunda səfərbər etmək Azərbaycanın xarici siyasətində əsas prioritetlərdən biridir. Hazırda dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlıların sayı Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların sayından çoxdur. Bu böyük bir "ordudur". Bu "ordu"nun səfərbər edilməsi dövlətimizin və xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ probleminin həll olunmasında mühüm rol oynayır. Nəzərə almaq lazımdır ki, Azərbaycan dövlətinə, onun ərazi bütövlüyünə, milli-mənəvi eyni zamanda maddi dəyərlərinə xarici ölkələrdə dərin kök salmış erməni diasporu tez-tez idepoloji hücumlar edir. Qeyd etməliyik ki, təşkilatlanma prosesinə çox gec başlasa da ilk növbədə Azərbaycan respublikasının prezidenti İlham Əliyevin dəstəyi, daha sonra Diasporlarla İş üzrə Dövlət Komitəsinin gərgin fəaliyyəti nəticəsində bu prosesi çox sürətlə həyata keçirən Azərbaycan diasporu öz tərəqqi dövrünü yaşayır. Azərbaycan diasporu

öz fəaliyyət istiqamətini ideoloji müdafiyədən ideologi hücum müstəvisinə keçirmişdir. Artıq bir neçə ildir ki, Xocalı soyqırımı ilə bağlı Londonda, İstanbulda, Ankarada, Moskvada, Vaşinqtonda və Mərkəzi Asiya respublikaları olan Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın bir sıra şəhərlərində təşkil olunan aksiyalar diasporumuzun gördüyü işlərin bariz nümunəsidir.

Ümummilli lider Heydər Əliyev özünəməxsus uzaqgörənliklə qlobal-laşan, köklü transformasiya dövrünü yaşayan dünyanın tələblərini öncədən görür və bu səbəbdən xaricdə yaşayan soydaşlarımız arasında möhkəm həmrəyliyi həyati məsələ kimi ortaya qoyurdu. Ulu öndər Heydər Əliyevin diaspor quruculuğu sahəsində apardığı uzaqgörən siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Prezident İlham Əliyev ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında birləşməsinə çalışır.

Uzun illər həm Mərkəzi Asiya xalqları, həm də Azərbaycan xalqı Sovet Rusiyasının "parçala və hökmranlıq et" – imperialist siyasətinin qurbanı olmuşlar. Sovet Rusiyası öz hakimiyyəti altında olan bütün türk xalqları arasında olan tarixi, milli və mədəni əlaqələri "söküb atmaq" üçün əlindən gələni etmişdir. Türkçülüyü təbliğ edən ziyalılar, ictimai xadimlər böyük təqiblərə məruz qalmışlar. Öz "gözlərini" şovinist rus siyasəti tutan Moskva XX əsrin 20-40-cı illərində "pantürkist", "panislamist" adı altında yüzlərlə azərbaycanlını doğma elindən, obasından sürgün etmişdir. SSRİ-nin dağılması və soyuq müharibənin qurtarması ilə dünyanın siyasi xəritəsi də dəyişdi. SSRİ-nin dağılma prosesinin ilkin əlamətlərinin göründüyü region kimi xarakterizə olunan Mərkəzi Asiya hadisələrin gedişində ən qaynar nöqtə olmuş və Sovetlər İttifaqının süqutundan sonra burada müstəqil dövlətlər yaranmışdır [3, 3]. Yeni dövlətlərdən Tacikistan istisna olmaqla, digərləri – Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan türk respublikalarıdır.

Yuxarıda qeyd etdiyimiz kimi sovet imperiyasının "parçala və hökmranlıq et" siyasəti nəticəsində Azərbaycan xalqı dəfələrlə müxtəlif ölkələrə, o cümlədən Mərkəzi Asiya respublikalarına "səpələnmişlər". Səpələndikləri ərazilərdə mühacir həyatı yaşayan soydaşlarımız diaspor təşkilatları formasında fəaliyyət göstərmişlər. Hal-hazırda Mərkəzi Asiya ölkələrində uğurla fəaliyyət göstərən təşkilatlar bunlardır:

Qazaxıstan Respublikasında – Qazaxıstan Azərbaycanlıları Assosiasiyası, Qazaxıstan Azərbaycanlılarının Mədəni Mərkəzləri ittifaqı, "Turan" mədəniyyət mərkəzi, "Vətən" və "Turan Ekspress" qəzetləri;

Özbəkistan Respublikasında – Azərbaycan-Özbəkistan mədəni-iqtisadi əlaqələr Mərkəzi, Azərbaycan Milli-Mədəni Mərkəzləri Assosiasiyası, "Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzi;

Tacikistan Respublikasında – Tacikistan Azərbaycanlılarının Dostluq və Mədəniyyət Mərkəzi, Heydər Əliyev Mərkəzi;

Qırğızıstan Respublikasında - "Azəri" İctimai Birliyi, "Azəri" Mədəniy-

yət Mərkəzi, “Azərbaycançılar” Assosiasiyası, “Xəzər” Mədəniyyət Mərkəzi, Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu fəaliyyət göstərir.

Azərbaycanın da daxil olduğu türkdilli xalqların diasporlarının son illərdəki coğrafiyasına və fəaliyyətinə nəzər yetirdikdə xeyli irəliləyişin şahidi oluruq. Ümummilli liderimiz Heydər Əliyevin “bir millət, iki dövlət” kəlamını rəhbər tutan prezidentimiz İlham Əliyev “bir millətin iki diasporu olmaz” fikri Türk-Azərbaycan diasporunun formalaşmasına güclü təkan verdi.

Mərkəzi Asiya Respublikalarında Azərbaycan diaspor təşkilatları əsasən mədəni və ictimai fəaliyyətlə məşğul olur. Hüquq, iqtisadiyyat, ictimai işlər, elmi və digər sahələrdə çalışan soydaşlarımızın müəyyən hissəsi öz peşəsi üzrə xeyli qabağa gedərək, mühüm vəzifələr tutublar. Buna misal olaraq Çu şəhərinin merini (Nizami Məmmədov), Qazaxıstanda beş nəfər vilayət, üç nəfər şəhər deputatı olan azərbaycanlıları göstərə bilərik.

Türk-Azərbaycan diasporunun yaradılması türkdilli xalqların vahid ideologiya ətrafında birləşməsi istiqamətində atılan ən önəmli addım oldu. Növbəti uğurlu addım 2013-cü ilin 21 iyun tarixində Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunun keçirilməsi oldu. Forumda “Türkdilli ölkələrin diaspor təşkilatlarının Birgə Fəaliyyət Strategiyası” hazırlandı. Bu strategiya mövcud vəziyyətdə qarşıda duran vəzifələri müəyyənləşdirərək onların həlli yolunu göstərir.

Forumun sonunda imzalanmış Bakı bəyannaməsinin bir neçə bəndini xüsusi olaraq qeyd etmək istərdim:

-Türkdilli ölkələrin iştirakı ilə həyata keçirilən transmilli layihələrin iqtisadi və siyasi əhəmiyyətinin təbliğində türkdilli diaspor təşkilatlarının fəal iştirakına nail olunması;

-Türkdilli xalqların əleyhinə aparılan anti-təbliğat kompaniyalarının qarşısının alınması, həmçinin İslam dini və onun təbliğ etdiyi mənəvi dəyərlər haqqında son zamanlar dünya ictimaiyyətində yayılmış yanlış təsəvvürlərin aradan qaldırılması məqsədi ilə birgə tədbirlərin keçirilməsi;

-Türkdilli xalqların üzləşdiyi problemlər barədə dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində birgə fəaliyyət göstərilməsi; İnternet məkanında, virtual şəbəkələrdə bu istiqamətdə təbliğatın aparılması;

-Türkdilli xalqların güclü lobbisinin yaradılması məqsədilə nüfuzlu beynəlxalq ictimai təşkilatlar və beynəlxalq qeyri-hökumət təşkilatları, həmçinin kütləvi informasiya vasitələri ilə Türkdilli icmaların qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi [4, 7].

Forumda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı türk xalqlarının ortaq əlifbasının və dilinin qəbul olunmasını, ortaq tarix və ədəbiyyat dərsliklərinin hazırlanmasını, universitetlərarası əlaqələrin inkişaf etdirilməsini, diplomların qarşılıqlı tanınması və ortaq təhsil telekanalının yaradılmasını zəruri hesab etməklə bağlı maraqlı fikirlər səsləndirdi.

Mərkəzi Asiya respublikalarında Azərbaycan Diasporunun təşəbbüsü ilə Azərbaycan Respublikasının bütün dövlət bayramları, həmçinin 20 yanvar

faciəsinin və Xocalı soyqırımının anım günləri, xalqımızın Novruz və başqa ümumxalq bayramları, eyni zamanda görkəmli ictimai-siyasi xadimlərin yubiley tədbirləri müntəzəm şəkildə qeyd olunur.

Bütün bu tədbirlər əslində Mərkəzi Asiya respublikalarında Azərbaycan diasporunun güclənməsinin və Azərbaycan həqiqətlərinin yayılması kimi mühüm məqamların həyata keçirilməsinin tərkib hissəsidir. Bir sıra tədqiqatçılar bayramların, hüzn günlərinin, yubileylərin keçirilməsini diasporun fəaliyyətində yüksək qiymətləndirmirlər və hesab edirlər ki, bu qəbildən olan tədbirlər o qədər də əhəmiyyətli deyil. Lakin qeyd etmək lazimdır ki, bu tədbirlər diasporun qarşısında olan bütün məsələləri həll etməsə də, Azərbaycan mədəniyyətinin, eyni zamanda xalqımızın bir nömrəli problemi olan Dağlıq Qarabağ problemi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından böyük əhəmiyyətə malikdir. Belə ki, bu tədbirlərdə həmin ölkələrdə yaşayan azərbaycanlılar ilə birlikdə yerli incəsənət ustaları, ədib və şairlər, dövlət xadimləri, diaspora üzvləri, eyni zamanda dövlət və hökumət rəsmiləri də iştirak edirlər.

Mərkəzi Asiya respublikalarında mövcud olan Azərbaycan diasporunun problemləri əslində demək olar ki, onların görməli olduğu işlərin hələ çox olması ilə izah oluna bilər. Lakin bir məsələni xüsusi olaraq qeyd etmək istərdim ki, Türkmənistan Respublikasında 33300 azərbaycanlı (2009-cu ilin məlumatına əsasən) [5, 87] yaşasa da, Türkmənistan hökumətinin süni maneələri nəticəsində bu respublikada hələ də Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərmir.

Ölkəmizin prezidenti İlham Əliyev erməni terroruna və separatizminə qarşı mübarizəmizdə erməni diasporunu və lobbisini daim nəzərə almağı tövsiyə edir: "...Dünya erməni diaspor və lobbi təşkilatları bizə qarşı mütəmadı qaydada mübarizə aparırlar... Erməni lobbisinin böyük iqtisadi imkanları var. Onlar bu iqtisadi imkanlardan istifadə edib, həm siyasətçiləri öz tərəfinə çəkirlər, həm də mətbuat orqanlarında özlərinə sərf edən yazıları dərc etdirirlər... Dünyada bizə, Azərbaycana qarşı mütəmadi qaydada çox böyük və düşmənçilik mövqeyində dayanan strukturlar fəaliyyət göstərir" [1, 2].

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ona bitişik ərazilərinin Ermənistanın silahlı birləşmələri tərəfindən işğal faktı etiraf olunmuş və təcavüzkardan işğal edilmiş bütün torpaqlardan qeyd-şərtsiz çıxmaq tələb olunmuşdur. BMT-nin təməl prinsiplərinə əsasən, işğalçı Ermənistan dövləti çox ciddi sanksiyalara məruz qalmalı və ona qarşı lazımi tədbirlər görülməli idi. Məhz ikili standartlarla siyasət yürüdən dünyanın "böyük" dövlətləri və bu dövlətlərdə mövcud olan erməni diaspor və lobbi təşkilatlarının aktiv fəaliyyəti nəticəsində 20 ildir ki, bu problem öz ədalətli həllini tapmamışdır. Yalnız ermənilərə məxsus ifrat kosmopolitizm, yerli şəraitə tez uyğunlaşma, düşdüyü millətin içində özünə əlahiddə hüquqlar əldə etmə, hər cür

digər sifətlərə malik olmaları sayəsində ermənilər hansı ölkədə məskunlaşmalarından asılı olmayaraq çox sürətlə təşkilatlana bilir və sonra özlərini bir diaspor olaraq göstətməyə başlayırlar. Formalaşan erməni diasporları ilk növbədə öz kilsələrini, yerli dildə və erməni dilində çap olunan mətbuat orqanlarını qururlar. Kilsə və qəzetlər ətrafında birləşən erməni ruhaniləri və millətçi dairələri isə həmişə terrora və qisasçılığa rəvac verir, diasporanı öz ideoloji və mənəvi təsiri altında tuturlar [2, 127]. Diaspora içindən çıxan erməni ideoloqları isə ya terrorçu qurumların yaradılmasının birbaşa təşkilatçıları olur, ya da artıq mövcud olduğu ölkələrdə nəinki ermənilər, habelə onların muzdla tutduqları, ələ aldıqları alimlər, siyasətçilər, jurnalistlər, kino xadimləri və başqa bu qəbildən olanlar tərəfindən sifarişlə yazılan əsərlər, qurulan muzeylər və abidələr vasitəsilə Azərbaycan və bütün Türk dünyasına qarşı böhtan dolu qərəzli təbliğat aparılır. Belə bir xain, qəddar düşməni olan Azərbaycan və bütövlükdə türk xalqlarının diasporları həmişə ayıq, mübariz və birlikdə olmalıdırlar.

Azərbaycan diasporunun prespektivləri bunlardır – dünyanın müxtəlif guşələrində yaşayan türk xalqlarının diaspor və lobbi təşkilatları ilə birləşmək, müasir informasiya müharibəsində qalib gəlmək, vətənimizin bir parçası olan Qarabağa sahib çıxmaq.

Mərkəzi Asiya respublikalarında mövcud olan Azərbaycan diasporları beynəlxalq aləmdə Qərbin ikili standartlarına qarşı etiraz tədbirlərində qardaş xalqlarla əl-ələ, çiyin-çiyinə addımlasalar daha böyük uğurlara imza atarlar.

### ƏDƏBİYYAT

1. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2008-ci ilin I rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş nitqi. “Azərbaycan” qəz., Bakı, 2008, 15 aprel, s.2
2. Məmmədov Ş. Erməni terroru və böyük dövlətlərin ikili standartlar siyasəti. Bakı, 2010, s.127
3. Məmmədov N. Mərkəzi Asiyada müstəqil türk dövlətlərinin yaranması və Türkiyə ilə qarşılıqlı əlaqələri. Bakı, 2003, s.3
4. Türkdilli dövlətlərin əməkdaşlıq şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Formu. Bakı, 2013, s.7.
5. Əliyev Z. Türkdilli Xalqların Diasporları. Bakı, 2009, s.87
6. www. diaspora.az
7. www. diaspora.gov.az
8. Mərkəzi Asiya respublikalarında Azərbaycan Diasporunun uğurları, problemləri və perspektivləri .

**ПРОБЛЕМЫ, УСПЕХИ И ПЕРСПЕКТИВЫ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В СТРАНАХ СРЕДНЕЙ АЗИИ**

**Р.Р.ДЖАФАРОВА**

**РЕЗЮМЕ**

Благодаря тому, что и Центральная Азия, и Азербайджан обладали благоприятными территориальными условиями со стратегической точки зрения, исторический Шелковый путь проходил по территории обоих регионов. Общность азиатских народов и азербайджанского народа ограничивался не только братством тюркских народов, в тоже время объединением их внутри одного государства во многих периодах истории. В XIX веке земли Азербайджана и Центральной Азии были захвачены Российской империей. В начале XX века в результате образования Советской власти и политики, которую она вела, сотни азербайджанцев поселились переселенческая и репрессивная в Центральной Азии. Особенно в периоды коллективизации и репрессий, а также в период выдачи необработанных земель на использование, политика получила широкое распространение.

**Ключевые слова:** институционализация, репрессия, диаспора

**ACHIEVEMENTS, PROBLEMS AND PERSPECTIVES OF THE AZERBAIJANI DIASPORA IN CENTRAL ASIAN REPUBLICS**

**R.R.JAFAROVA**

**SUMMARY**

Thanks to the auspicious territorial conditions of Central Asia and Azerbaijan the historical Silk Way passed from the territories of both regions. The community of the Azerbaijani nation and Central Asian people was not limited to fraternity of the Turkish people, they also united in the same government through different periods of history. Azerbaijan and Central Asia were occupied by Russia in the XIX century. Early in the XX century, as a result of the establishment of the Soviet power and policy, hundreds of Azerbaijanis were settled in Central Asia. Especially the policies of resettlement and exile were extended during the period of collectivization, repressions.

**Key words:** organisation, repression, diaspora